# Azərbaycan türk dünyasında da öz təsir gücünü mərhələli şəkildə artırır...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi

**Son illərdə Azərbaycan türk dünyasında öz mövqeyini gücləndirərək siyasi, iqtisadi, mədəni və təhlükəsizlik sahələrində aparıcı aktorlardan birinə çevrilib. Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində həyata keçirilən inteqrasiya prosesləri Azərbaycan üçün yalnız xarici siyasət prioriteti deyil, həm də milli maraqların qorunması, ictimai birliyin gücləndirilməsi və strateji təhlükəsizliyin təmin olunması baxımından mühüm alətə çevrilib. Azərbaycanın türk birliyində artan rolu həm tarixi bağların möhkəmlənməsinə, həm də ölkənin dövlətçilik və təhlükəsizlik maraqlarının daha effektiv müdafiə edilməsinə şərait yaradır.**

**Zəngəzur dəhlizi türk dövlətləri arasında əməkdaşlığın inkişafında və möhkəmlənməsində mühüm rol oynayacaq**

Türk dünyası ilə əlaqələr Azərbaycanın xarici siyasətinin belə demək mümkün olarsa, ən qədim istiqamətlərindən biridir. Lakin bu münasibətlərin müasir dövrdə yeni keyfiyyət mərhələsinə yüksəlməsi bir neçə amillə bağlıdır. İlk növbədə, XX əsrin sonundan başlayaraq Azərbaycan öz tarixini, milli kimliyini və mədəni özünüdərkini gücləndirmək üçün türk kimliyini mühüm dayaq nöqtəsi kimi qəbul edib. Bu, ictimai şüurda milli həmrəyliyin artmasına və xalqın öz mənəvi köklərinə bağlılığının güclənməsinə səbəb olub.

Digər tərəfdən, geosiyasi dəyişikliklər, yeni təhlükəsizlik çağırışları və regional güc balansındakı yenilənmələr türk dövlətlərinin bir-birinə daha sıx inteqrasiya ehtiyacını artırıb. Bu məqamda Azərbaycanın təşəbbüskar, fəal və sistemli siyasəti türk coğrafiyasında mühüm rol almasına imkan verib. Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun iştirakçılarına müraciətində də prezident İlham Əliyev qeyd edib ki, bu gün Türk dünyası özünün yüksəliş dövrünü yaşayır: "Azərbaycan Türk Dövlətləri Təşkilatına hazırda sədrlik edən ölkə kimi üzv ölkələrin vətəndaş cəmiyyəti təsisatları arasında da ictimai kommunikasiyanın gücləndirilməsinə çalışır. Bu günlərdə Bakıda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Qızıl Aypara Cəmiyyətləri Prezidentlər Şurasının iclasının keçirilməsi, QHT-lərin indiki həmrəylik forumu və ardınca TDT-nin media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin növbəti toplantısı bu sahədə aparılan işlərin miqyasını və çoxşaxəli xarakterini nümayiş etdirir. Beş il əvvəl qazandığımız Qarabağ Zəfəri türk xalqlarının ümumi sevinci və qürur mənbəyidir. İnanıram ki, hazırda yenidən qurulan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, açılacaq Zəngəzur dəhlizi türk dövlətləri arasında əməkdaşlığın inkişafında və möhkəmlənməsində mühüm rol oynayacaqdır. Azərbaycan Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə ikitərəfli və çoxtərəfli əsasda QHT-lər üçün tarix, mədəniyyət, ekologiya, iqlim siyasəti və digər sahələrdə ortaq qrant müsabiqələri elan etməyə, qarşılıqlı kommunikasiyanı gücləndirən layihələri dəstəkləməyə hazırdır". Türkiyədən olan ekspert, "Genar" Araşdırma Şirkətinin rəhbəri İhsan Aktaş bildirir ki, inkişaf edən iqtisadiyyatı, güclü ordusu və geniş beynəlxalq əlaqələri sayəsində Azərbaycan türk dünyasının aparıcı dövlətlərindən biri kimi mövqeyini möhkəmləndirib, TDT-nin əsas aktorlarından birinə çevrilib. "Bu mövqe onun həm Cənubi Qafqazda, həm də türk dünyasında təsir gücünü mərhələli şəkildə artırmağa davam edəcək". Azərbaycanın türk dünyasında artan rolunun ən bariz nümunəsi TDT çərçivəsindəki liderlik təşəbbüsləridir. Azərbaycanın təşkilatın fəaliyyətini gücləndirən layihələrdə iştirak etməsi, türkdilli dövlətlər arasında nəqliyyat, enerji, ticarət və mədəni əməkdaşlıq platformalarının yaradılmasında aparıcı rol oynaması onun bölgədə nüfuzunun artmasına səbəb olub. Bu layihələr təkcə türk dünyasında inteqrasiyanı artırmır, həm də Azərbaycanın regional və qlobal siyasətdə mövqeyini gücləndirir. Bununla yanaşı, Azərbaycan TDT-nin qərarverici prosesində aktiv rol oynayaraq təşkilatın institusional inkişafına mühüm töhfələr verir. Nəticədə öz ictimai və dövlət maraqlarının müdafiəsini qeyd edilən istiqamətdə də uğurla həyata keçirir.

**Türk dünyasında artan həmrəylik Azərbaycanın maraqlarının daha uğurlu şəkildə müdafiəsinə yeni təkan verir**

Türk dövlətləri ilə əməkdaşlığın dərinləşdirilməsi Azərbaycanın təhlükəsizlik mühitinin möhkəmləndirilməsi baxımından vacibdir. Türk dünyası ilə strateji yaxınlıq sayəsində ölkə həm siyasi dəstək, həm də regional sabitlik baxımından üstün mövqeyə malikdir.

2020-ci il 44 günlük Vətən müharibəsi dövründə türk dövlətlərinin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək bunun ən bariz nümunələrindən biridir. Xüsusilə Türkiyənin qəti mövqeyi, digər türk respublikalarının Azərbaycana diplomatik dəstəyi Ermənistanın təcavüzkar siyasətinə qarşı kollektiv qarşıdurma imkanı yaratdı. Bu hadisə türk birliyinin Azərbaycanın suverenlik və ərazi bütövlüyü məsələlərində nə qədər mühüm rol oynadığını praktik şəkildə göstərdi. Türk dünyasında artan həmrəylik Azərbaycanın hərbi və müdafiə qabiliyyətinin güclənməsinə də müsbət təsir edir. Birgə təlimlər, müdafiə sənayesi əməkdaşlığı və təhlükəsizlik mexanizmlərinin koordinasiyası milli təhlükəsizlik sisteminin yeni səviyyədə formalaşmasına zəmin yaradır. Azərbaycanın türk dövlətləri ilə iqtisadi əməkdaşlığı ölkənin iqtisadi təhlükəsizliyinin və inkişaf strategiyasının mühüm komponentidir. Xəzər hövzəsi, Mərkəzi Asiya və Anadolu vasitəsilə keçən nəqliyyat və enerji xətləri Azərbaycanı regionun mühüm iqtisadi aktoruna çevirir. TDT çərçivəsində həyata keçirilən iqtisadi layihələr Azərbaycan üçün bir neçə üstünlük yaradır. Məsələn bu sayədə yeni bazarlara çıxış,tranzit və logistika gəlirlərinin artması, enerji layihələri vasitəsilə geosiyasi təsirin möhkəmlənməsi, şaxələndirilmiş ticarət əlaqələrinin qurulması, regional rəqabət qabiliyyətinin artırılması kimi üstünlüklər əldə edilir. Bunlar həm dövlət maraqlarının qorunmasına, həm də iqtisadi inkişafın davamlı olmasına şərait yaradır. Türk dünyası ilə inteqrasiyanın ən mühüm təsirlərindən biri Azərbaycan cəmiyyətində milli kimliyin, vətənpərvərliyin və ictimai həmrəyliyin güclənməsidir. Türk dövlətləri ilə sıx münasibətlər mədəni və tarixi bağlılıqlara əsaslandığı üçün ictimaiyyət tərəfindən geniş dəstəklənir. Bu əlaqələr ölkə daxilində milli şüurun möhkəmlənməsinə, xüsusilə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunmasına böyük töhfə verir. Mədəni layihələr, türkdilli xalqların ortaq irsi ilə bağlı tədbirlər, elm və təhsil sahəsində əməkdaşlıq imkanları Azərbaycan cəmiyyətində birliyi gücləndirən ideoloji baza formalaşdırır. Ümumiyyətlə, Azərbaycanın türk dünyasında artan rolu həm siyasi, həm iqtisadi, həm də təhlükəsizlik baxımından ölkənin milli və dövlət maraqlarının müdafiəsinə xidmət edir. Bu əməkdaşlıq Azərbaycan üçün yalnız diplomatik üstünlük deyil, həm də strateji gələcək vizionunun ayrılmaz hissəsidir. Türk dünyasında aparıcı aktora çevrilən Azərbaycan regional əməkdaşlığın dərinləşdirilməsinə, türk birliyinin gücləndirilməsinə və geniş geosiyasi məkanda öz maraqlarını daha effektiv şəkildə qorumağa davam edir.



*Tahir TAĞIYEV*

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.*